COP29-a töhfə verən könüllü Azərbaycan gəncləri

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkə gənclərinə xüsusi diqqət və həssaslıqla yanaşmışdır. Dahi şəxsiyyətin apardığı məqsədyönlü siyasətin tərkib hissəsindən biri də yetişməkdə olan nəslin potensialını üzə çıxarmaq idi. Çünki gənclik həmişə aparıcı qüvvə olub. Bu məqsədlə 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlamışdır. 1998-2000-ci illərdə ölkədə güclü könüllü komandası yaradıldı və könüllülük prinsipi geniş auditoriyaya təqdim edildi. 2009-cu ildə Milli Məclis tərəfindən "Könüllü fəaliyyət haqqında" qanun qəbul olundu. 10 maddədən ibarət geniş və əsaslı qanunla ölkəmizdə könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

2013-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (Asan Xidmət) yanında aktiv və konstant könüllü təşkilat olan Asan Könüllüləri Təşkilatı (AKT) yaradıldı. Paytaxt Bakıda başlanan könüllülük fəaliyyəti tezliklə bütün ölkə ərazisində "Asan Xidmət" mərkəzlərini əhatə etdi, tətbiq edilən yenilik yüksək nəticələr verdi. Bu proses gənclər siyasətinin tərkib hissəsi kimi həm də yetişən nəslin gələcək həyatında böyük perspektivlər və imkanlar yaratdı. Artıq Azərbaycanda könüllü gənclər ordusu var. Onlar ölkə miqyasında keçirilən bütün tədbir, yarış və aksiyalarda fəal iştirak edirlər. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) öz töhfəsini verənlər sırasında könüllülər də var idi. Artıq yerli və beynəlxalq tədbirləri könüllülərin iştirakı olmadan təsəvvür etmək çətindir. Paytaxt Bakının ev sahibliyi etdiyi COP29 bu baxımdan yalnız qlobal ekoloji konfrans deyildi, eyni zamanda gənclərin inkişafını və prosesdə fəal iştirakını təşviq edən bir platforma idi. Tədbir gənclərin həyatında mühüm rol oynamaqla yanaşı, fərdi və peşəkar inkişafına əhəmiyyətli dərəcədə töhfə verdi.

Onu da qeyd edək ki, könüllü gənclərin artıq bu sahədə xeyli təcrübələri var. Çünki onlar Azərbaycanda keçirilən bütün irimiqyaslı tədbirlərdə iştirak edirlər. 2015-ci il Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" və digər tədbirlərdə fəallıq göstəriblər. Onlar bu tədbirlərdə öz bacarıq və üstünlüklərini nümayiş etdirməklə bərabər, həm də inkişaf edirlər, hər bir tədbir gənclərin böyük təcrübə məktəbinə çevrilir. Gənclər beynəlxalq təşkilat və nümayəndələrlə ünsiyyət qurmaqla əlaqələrini genişləndirir və dünyaya çıxış üçün yeni vasitələr qazanırlar. Məsələlərə fərqli aspektlərdən yanaşmaq özgüveni artırır, inam hissini gücləndirir, eyni zamanda gənclərin özlərini doğrultmaları üçün fürsət yaranır.

COP29 da ölkə gənclərinin həyatında unudulmaz izlər buraxdı. Onlar bu tədbir vasitəsilə dünyanın hər yerindən gəlmiş insanlarla ünsiyyət qurdu, fikir mübadiləsi apardılar. Fərqli düşüncəyə malik iştirakçılarla əlaqələr həm də onlara yeni fürsətlər yaratdı. Buna görə də könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi gəlirə əsaslanmayan, cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqaməti kimi xarakterizə olunur. Könüllülük fəaliyyəti ilə insan bir çox faydalı üstünlüklərə yiyələnir. Yəni tanışlıqlar, peşə bacarıqları onlara karyera qurmağa əlverişli şərait yaradır. Hazırda dünyada könüllü iş sosial təcrübənin əsasını təşkil edir. Könüllülər müxtəlif səpkili tədbir və aksiyalarda sosiallaşır, komanda halında çalışmağa uyğunlaşırlar.

Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilən konfrans da gənclərin bu sahədə aktivliyinin göstəricisidir. Tədbirin əsas məqsədi Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişmələrinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etmək idi. Konfransda çıxış edən birinci xanım Mehriban Əliyeva deyib: "Gənclər iqlim fəaliyyətinin ön cərgəsində" panelimizin elə adının özündən məqsəd bəllidir. Son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir. Ümid edirəm ki, COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanımız olacaq. Mən COP29-da iştirak edən və qayğı ilə yanaşan bütün gəncləri, ekofəalları, gənclər təşkilatlarının bütün nümayəndələrini salamlayıram".

Onu da qeyd edək ki, hələ 29 may tarixində COP29 Könüllülük Proqramı elan edildikdən 24 saat sonra 9 mindən çox müraciət olub. Qeydiyyat müddətinin sonuncu günü isə bu say 16 mini keçib. Əlbəttə ki, ölkə gənclərinin bu sahədəki aktivliyi və tədbir çərçivəsində 3 min könüllünün iştirakı təqdirəlayiqdir. Öncədən təlim prosesinə cəlb edilən gənclər (təlimlərin gündəliyi) irimiqyaslı və beynəlxalq tədbirin tələblərinə uyğun olaraq xüsusi hazırlanmış, rol təlimləri ilə yanaşı, liderlik, kommunikasiya bacarıqları, ekoloji və sosial dayanıqlılıq kimi mövzuları əhatə edən seminar və təlimlərdə iştirak etmişlər. COP29-da iştirak edən könüllülər 17 şöbə üzrə 35 fərqli rolda fəaliyyət göstərdilər. Onların fəaliyyəti hava limanında qonaqların qarşılanması, mehmanxanalara yerləşdirilməsi, nəqliyyatın təşkili və tədbir məkanı olan Bakı Stadionunda tədbirə dəstək göstərilməsi kimi müxtəlif sahələri əhatə edib. Tədbir müddətində gənclərin çevikliyi və peşəkarlığı bütün mərhələlərdə özünü göstərib. Bu həm də onların həyatında dönüş nöqtəsi olduğuna və gələcək karyeralarını daha inamlı şəkildə hazırlayacağına əminlik yaradır. Onların yüksək səviyyəli hazırlığından qonaqlar da məmnunluqlarını bildirirlər. Xarici nümayəndələrin qeyd etdiyinə görə, onlar COP tarixində belə bir səviyyədə könüllülərin fəaliyyətinə şahid olmayıblar. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş COP29 beynəlxalq iqlim konfransı çərçivəsində Bakıda olarkən COP29 Azərbaycan Əməliyyat Şirkətinin işçi heyəti və COP29 könüllüləri ilə xatirə fotosu çəkdirərək tədbirin təşkilatçılığında könüllülərin verdiyi töhfəsini yüksək qiymətləndirib.

Ramidə YAQUBQIZI,
"Respublika".